Oktyabrın 17-də mərkəzləşdirilmiş qaydada keçiriləcək yoxlama imtahanı ilə bağlı bölgələrə ezam olunan koordinatorlarla müşavirə keçirilib.

Müşavirəni təhsil naziri Misir Mərdanov açaraq 2008-2009-cu dərs ilində respublikanın bütün orta ümumtəhsil məktəblərində buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada keçiriləcəyini qeyd edib. Nazir artıq ölkəmizin bölgələrində həmin məsələ ilə bağlı geniş hazırlıq və təşkilati işlərin aparılmasının vacib olduğunu, bu işdə kifayət qədər təcrübəsi olan ayrı-ayrı mütəxəssislərin, təhsil işçilərinin respublikamızın bölgələrinə ezam edilməsinin nəzərdə tutulduğunu bildirib. Misir Mərdanov koordinatorlar üçün ümumi bir təlimatın hazırlandığını vurğulayıb. Koordinatorların ezam olunduqları rayon və şəhərlərdə görəcəkləri işlərdən söz açan nazir, mərkəzləşdirilmiş qaydada keçiriləcək yoxlama və buraxılış imtahanları ilə bağlı yerlərdə əhalinin lazımi səviyyədə məlumatlandırılması, müəllim, şagird və valideynlər arasında izahat verilməsinin vacibliyini qeyd edib.

Misir Mərdanov həmin məsələ ilə əlaqədar müşavirədə iştirak edən şəhər və rayon təhsil müəssisələrinin rəhbərlərinə müvafiq tapşırıqlar verib, digər həlli vacib məsələlərə də toxunaraq öz fikir və mülahizələrini söyləyib, bəzi məqamlara aydınlıq gətirib.